# Qədim Qəbələ şəhərinin antik və ilk orta əsrlər yaşayış yeri olan Qala adlı ərazisində VIII-X əsrlərə aid zəngin mədəni təbəqə aşkarlanmışdır

Qafqaz Albaniyasının paytaxtı olmuş qədim Qəbələ şəhərinin ərazisində SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının dəstəyi ilə aparılan arxeoloji qazıntılar zamanı yeni maddi-mədəniyyət nümunələri tapılmışdır.

AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun Qəbələ arxeoloji ekspedisiyasının rəhbəri, AMEA-nın müxbir üzvü İlyas Babayev bildirmişdir ki, şəhərin son antik və ilk orta əsrlər yaşayış yeri olan Qala adlı ərazisində tədqiqat işləri zamanı VIII-X əsrlərə aid zəngin mədəni təbəqə aşkarlanmışdır.

Onun sözlərinə görə, həyata keçirilən qazıntı işləri zamanı qədim Qəbələ şəhərinin su-kanalizasiya sisteminin bir hissəsi, tikinti qalıqları, müxtəlif təndirlər, misdən düzəldilmiş bəzək əşyaları, saxsı və şüşə qabları, ox ucluqları, sümükdən və şüşədən hazırlanmış nümunələr tapılmışdır.

Aşkarlanan qəbirlər, qədim Qala sakinlərinin yaşadıqları evlərin həyətində dəfn olunduqlarını göstərir. Maraqlı tapıntılardan biri də qədim dövrə aid barıtla doldurulan əl qumbaralarıdır.

Ərazidə tədqiqatlar davam etdirilir.

# Minnətdarlığımızı bildiririk

Sentyabr ayının 21-dən 28-dək Gürcüstan Respublikasının Batumi şəhərində şahmat məsələlərinin əyani həlli üzrə Dünya Çempionatı keçiriləcəkdir. Çempionatda Dünyanın bir sıra tanınmış şahmatçılarının iştirakı nəzərdə tutulmuşdur. Həmin yarışa rayonumuzdan şəhər 2 saylı tam orta məktəbin X sinif şagirdi, gənc və istedadlı şahmatçı, I dərəcəli idmançı, 16 yaşlı qızlar arasında ölkə birinciliyinin qızıl medalçısı Aydan Hüseynzadə də dəvət almışdır. Gənc şahmatçının yarışda iştirakının reallaşdırılması üçün göstərdiyi dəstəyə görə Qəbələ Rayon İcra Hakimiyyətinə minnətdarlığımızı bildiririk.

**Sahib HÜSEYNOV, şahmatçının məşqçisi.**

# Topaz premyer liqasının təqvimi

**2013-cü il**

**VII tur**

**20 sentyabr (cümə)**

31. "Qəbələ" (Qəbələ)–"Rəvan" (Bakı).

**21 sentyabr (şənbə)**

32. "Qarabağ" (Ağdam)–"Simurq" (Zaqatala).
33. "İnter" (Bakı)–"Bakı" (Bakı).

**22 sentyabr (bazar)**

34. AZAL (Bakı)–"Xəzər Lənkəran" (Lənkəran).
35. "Sumqayıt" (Sumqayıt)–"Neftçi" (Bakı).

**VIII tur**

**27 sentyabr (cümə)**

36. "Xəzər Lənkəran" (Lənkəran) – "İnter" (Bakı).

**28 sentyabr (şənbə)**

37. "Bakı" (Bakı)–"Sumqayıt" (Sumqayıt).
38. "Neftçi" (Bakı)–"Qarabağ" (Ağdam).

**29 sentyabr (bazar)**

39. "Simurq" (Zaqatala)–"Qəbələ" (Qəbələ).
40. "Rəvan" (Bakı)–AZAL (Bakı).

**IX tur**

**4 oktyabr (cümə)**

41. AZAL (Bakı) – "Simurq" (Zaqatala).

**5 oktyabr (şənbə)**

42. "Rəvan" (Bakı) – "Xəzər Lənkəran" (Lənkəran).
43. "Qarabağ" (Ağdam) – "Bakı" (Bakı).
44. "Sumqayıt" (Sumqayıt) – "İnter" (Bakı).

**6 oktyabr (bazar)**

45. "Qəbələ" (Qəbələ) – "Neftçi" (Bakı).

# Maraqlı məlumatlar

Gülmək insanın əhval-ruhiyyəsinə yaxşı təsir edir. Həkimlər müəyyən etmişlər ki, bir dəqiqəlik gülmək 45 dəqqəlik gəzməyə bərabərdir.

Lakin gülməkdən ölüm də olur. Tarixdən məlumdur ki, çar Kserks və şair Filoman gülməkdən, Sofokl isə gurultulu alqışlar altında ölmüşlər.

* * *

İnsan aclığa 40—73 gün, susuzluğa 5 gün, havasızlığa isə 5 dəqiqə davam gətirə bilir.

* * *

İnsan uzun müddət bir böyrək və ağ ciyərlə, mədəsiz, dalaqsız yaşaya bilər, amma qara ciyərsiz bir dəqiqə də yaşaya bilməz.

* * *

İnsan 75 yaşından sonra qoca sayılır. 90 yaşından sonra isə uzunömürlülər sırasına keçir.

**Rəciyyə ŞİRİNOVA.**

# ELAN

**Ədliyyə Nazirliyinin kadr korpusunun hazırlıqlı və sağlam mənəviyyata malik işçilər hesabına möhkəmləndirilməsi məqsədilə davamlı olaraq açıq müsabiqələr keçirilir.**

Hazırda ədliyyə orqanlarına qulluğa qəbulla bağlı bu ilin iyun ayının 9-da keçirilmiş test imtahanında müvəffəqiyyət qazanmış namizədlərlə Ədliyyə Nazirliyinin Müsabiqə Kosmissiyası tərəfindən fərdi qaydada söhbətlər aparılır.

Bununla belə ədliyyə orqanlarında mövcud vakant ştat vahidlərinin komplektləşdirilməsi üçün peşəkar kadrlara olan ehtiyacı nəzərə alaraq, eyni zamanda ali təhsil müəssisələrini bu il bitirmiş gənc məzunların müsabiqədə iştirakına şərait yaratmaq məqsədilə növbəti açıq müsvabiqə elan edilir.

**Xatırladırıq ki, müsabiqənin birinci mərhələsində—test imtahanında iştirak etmək üçün yalnız müvafiq formada ərizə ilə müraciət etmək kifayətdir.**

Nazirliyin icra xidmətində, regional ədliyyə və qeydiyyat şöbələrində, həmçinin digər ədliyyə sahələrində olan vakant vəzifələrdə çalışmaq üçün «Ədliyyə orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikası Qanununun tələblərinə cavab verən, o cümlədən fəaliyyət qabiliyyətli, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmamış, fiziki və əqli cəhətdən bu orqanlarda işləməyə qadir olan ali hüquq təhsilli Azərbaycan Respublikası vətəndaşları müsabiqəyə dəvət olunur.

**Ərizənin formasını Ədliyyə Nazirliyinin internet səhifəsindən və ya nazirliyin aparatından götürmək mümkündür.**

**Ünvan: Bakı şəhəri, İnşaatçılar prospekti 1.**

Qaydalara əsasən test imtahanında uğur qazanmış namizədlərin digər sənədlərinin toplanması və yoxlanılması bu mərhələdən sonra həyata keçiriləcək və qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verən şəxslər ikinci mərhələyə-söhbətə buraxılacaqlar.

**Müsabiqədə iştirak etmək üçün ərizələr yuxarıda göstərilən ünvanda qəbul olunur.**

Əlavə məlumat internet səhifəsi və ya 538-01-62, 538-08-15 nömrəli telefonlar vasitəsilə almaq olar.

Həmçinin bildiririk ki, müsabiqədə iştirak edən hüquqşünasların test imtahanına və söhbət mərhələsinə mükəmməl hazırlaşmalarına və yüksək nəticələr əldə etmələrinə köməklik məqsədilə Müsabiqə Komissiyası onlar üçün Ədliyyə Akademiyasında müvafiq hazırlıq kursunun təşkilini nəzərdə tutmuşdur.

Test imtahanının və hazırlıq kursunun vaxtı və yeri barədə əlavə məlumat veriləcəkdir.

**Ədliyyə Nazirliyinin Mətbuat Xidməti.**

# ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Rayon Mərkəzi xəstəxanasının kollektivi həkim-kardioloq

**NATİQ İSMAYILOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

«Qəbələ» qəzetinin kollektivi iş yoldaşları **Rais Rəşidova,** yaxın qohumu

**NATİQ İSMAYILOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir və kədərləndiyini bildirir.

# İşaxtaran vətəndaşların nəzərinə!

QƏBƏLƏ RAYON MƏŞĞULLUQ MƏRKƏZİ

19 sentyabr 2013-cü il tarixdə

## Əmək yarmarkası keçirir

**İşaxtaran vətəndaşlar, sizi Əmək yarmarkasına dəvət edirik.**

Yarmarka saat 11-00-da başlanır.

Ünvan: Qəbələ şəhəri, E. Kərimov küçəsi 1.

Qəbələ Rayon Məşğulluq Mərkəzi.

# ELANLAR

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi Qəbələ Rayon Şöbəst tərəfindən 7 dekabr 2002-ci il tarrixdə 12 saylı qərarla Bum qəsəbə sakini Əzəmmədov Fəxrəddin Valeh oğlunun adına verilmiş JN-0711 sayl **Torpaq haqqında sənəd itdiyi** üçün etibarsız sayılır.

Qəbələ şəhər sakini Mustafayev Səlim Ağası oğlunun vərəsəlik hüququ ilə əlaqədar 25 aprel 2005-ci Il tarixdə əmisi Mustafayev Yusif Mustafa oğluna V-06105 iş №-si ilə verilmiş **Vərəsəlik hüququ haqqında şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.

Redaktor O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi M. Ə. Rəhimov.

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149
VÖEN: 4400103601
Lisenziya AV № 022611

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.
Oxucu məktubları geri qaytarılmır.